Zəfər Gününə həsr olunmuş tədbir

5 noyabr 2022-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin akt zalında Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə FHN-in Şimal-qərb Regional Mərkəzinin rəisi polkovnik-leytenant Elnur Məhərrəmov, Mərkəzin rəis müavini və əməkdaşları iştirak ediblər.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan FHN-in Şimal-qərb Regional Mərkəzinin rəisi polkovnik-leytenant Elnur Məhərrəmov sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsindən bəhs edib. O, qeyd edib ki, Azərbaycan xalqı öz liderinin - Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi.

Daha sonra çıxış edən natiqlər bildirdilər ki, qələbə ilə nəticələnən Vətən müharibəsi ölkəmizin ictimai-siyasi, sosial-iqsadi və hərbi gücünün artdığını ölkənin nəinki regionda hətta dünya miqyasında nüfuz sahibi olduğunu göstərdi.

Daha sonra 44 günlük vətən müharibəsindəki tarixi Zəfərdən bəhs edən sənədli film nümayiş olunub.

FHN Şimal-qərb Regional Mərkəzinin Maarifləndirmə sektoru.

Canlı şahid

(Əvvəli 7-ci səhifədə).

Güc birlikdədir

Döyüşlərdə şəhid olmayanlar da qəhrəmanlardır. Öz istəyi ilə ölümün gözünə dik baxanlardır. Şəhid olmaq onların qəlbinin istəyi və tutduğu mübarizə yolunun son və yüksək pilləsi olmuşdur. Şəhidlik qorxmazlıqdır. Döyüşə isə yalnız qorxmaz, mərd, qəlbində insanlığa, torpağa sevgisi olanlar gedirlər. Allah hər kəsə bir ömür yazar. Döyüşçülərə ölüm yazmayıbsa, deməli onlara şəhidlərin intiqamını almaq üçün möhlət vermişdir!

Vətənpərvərlik birlik deməkdir. Birlik isə gücdür, qüvvətdir, qüdrətdir. Məhz bu gücün müqabilində komandanlıqla xalqın birliyi sayəsində Zəfər qazanıldı.

Torpaq ölməzlikdir

Nicat Baxışov torpaq sevgisi, xalqına sonsuz məhəbbəti, bir sözlə həyat dolu bir gəncdir. Şair bu misraları sanki onun qəlbini oxuyurmuş kimi yazmışdır:

Mən bir elin, bir vicdanın köləsiyəm,
Göy uçulsa, torpaq ölsə, öləsiyəm!

Torpaq Poladlar, İlqarlar, Mübarizlər, Təbrizlər və cəmi qəhrəman şəhid, qazi, döyüşçülər vətənidir. Bu vətənpərvərlərin bir ünvanı var-vətən-Azərbaycan!

Nicat da vətənin vətənpərvər, vicdanı baxımdan zəngin bir gəncidir. Və bu zənginlik onun vətənpərvərliyinin, mənəviyyatca yüksəkliyinin bariz nümunəsidir.

Vətən və torpaq şəhidləriylə möhkəmlənirsə, tarixlərə kök atırsa, döyüşçü və qaziləriylə həyatın mübarizə tarixinə yazılır və bu canlı qüvvə ilə mənfi niyyətlərə sipər olur. Vətən uğrunda döyüşənlər vətənin mübarizə qalası düşmənə görk olan qəhrəmanlarımızdır!

BİBİXANIM.

Ruh yüksəkliyi ilə

Bu il xalqımız tarixi qələbənin 8 noyabr-zəfər gününün 2-ci ildönümünü böyük ruh yüüksəkliyi ilə qeyd etdi. "Zəfər bayramı" münasibətilə şəhid-Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində keçirilən tədbirdə məktəbin direktor əvəzi Ramil Məmmədov qələbəmiz haqqında qısa məlumat verdi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Aparıcı uşaq birliyinin rəhbəri Gülnar Quliyeva toplantı iştirakçılarını salamladıqdan sonra sözü qəsəbə ərazi nümayəndəsi Eyvaz Kazımova vermişdir.

O, bumlu gənclərin I Qarabağ və Vətən müharibəsindəki şücaətlərindən danışmışdır. Söz şəhidlərin əzizlərinə və doğmalarına verilmişdir. Qarabağ müharibəsinin şəhidləri Mahir Hüseynovun qardaşı Zahir Hüseynov, Təbriz Yaqubovun qardaşı Rüstəm Yaqubov, qardaşı oğlu Anar Rüstəmli, İkram Umarovun qardaşı Mehman Umarov, Vətən Müharibəsinin şəhidləri Adəm Heydərovun atası İkram Hacıyev, Vasif Süleymanovun nənəsi Gülbəniz Dadaşova, Aprel döyüşlərinin şəhidi Sahil Şirinovun anası Şəhla Şirinova toplantıda çıxış edərək fədakar oğulların göstərdikləri qəhrəmanlıqlardan danışmış, Vətənimizə sülh arzulamışlar. Bu sətirlərin müəllifi özünün "Vur, igid əsgər" şeirini səsləndirmişdir. Tədbirin sonunda vətənpərvərlik mövzusunda səhnəciklər göstərilmişdir.

Emin BARATOĞLU,
Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü.

Zəfər tədbiri keçirilmişdir

Vəndam qəsəbəsinin 1 saylı orta məktəbində 8 noyabr - Zəfər günü ilə əlaqədar tədbir keçirilmişdir.

Təşkilatçı müəllimlərin - Leyla İsayeva, Günay İsrafilova və Gündüz Musayevanın hazırladığı tədbirdə şəhid ailələri, qazilər, hərbi sahədə işləyən hərbçilər, döyüşçülər, qəsəbədə fəaliyyət göstərən idarə rəhbərləri də iştirak etmişlər. Məktəblilər vətənpərvərlik mövzusunda şeirlər oxumuş, səhnəciklər göstərmişlər.

Məqsəd İSAYEV,
məktəbin şagirdi.

Şahmat üzrə rayon turniri

Qəbələ Rayon Gənclər və İdman İdarəsi və Qəbələ Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin təşkilatçılığı ilə 9 noyabr 2022-ci il tarixində Qəbələ şəhər 1 saylı tam orta məktəbdə 9 Noyabr-Dövlət Bayrağı Gününə həsr edilmiş yeniyetmələr arasında şahmat üzrə rayon turniri keçirilmişdir.

Turnirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və uşaq-gənclər idman-şahmat məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək yarış iştirakçılarını salamlamış, onları 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə təbrik edərək uğurlar arzulamışdır. Natiqlər yarış iştirakçılarına bu günün yaranma tarixi barədə məlumat verərək bildirmişdir ki, bu bayram cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən qeyd edilir.

Turnirdə rayonun kənd, qəsəbə və şəhər məktəblərindən olan yeniyetmə şahmatçılar 8-10-12-14 və 16 yaş qruplarında dairəvi sistem üzrə gərgin oyun nümayiş etdirmişlər.

Turnirin yekununa əsasən müvafiq yaş qrupları üzrə oğlanlar arasında Ümid Qəribli, Məhəmməd Babayev, Şahan Musayev, Toğrul Bağırov, Ümid Abdulkərimli, Sami Almməmmədov, qızlar arasında isə Ləman Bayramlı, Nərmin Rzayeva, Əsmər Seyidova, Ruhangiz Babayeva, Zəhra Çələbiyeva birinci yerə tutmuşlar.

Hər yaş qrupunda I, II və III yeri tutan qaliblərə rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim edilmişdir.

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2023-cü ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

İTMİŞDİR

Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsi tərəfindən Qəbələ şəhəri, A. İsmayılov küçəsi, ev 9 da yaşayan **Hüseynov Rövşən Ağasəf oğluna** məxsus 406013008535-10301 reyestr nömrəli **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1300